**AUDİT 2025, 4 (50), səh. 121-131.**
**AUDIT 2025, 4 (50), pp. 121-131.**
**АУДИТ 2025, 4 (50), стр. 121-131.**

**DOI: 10.59610/bbu4.2025.4.12**

*Məmmədov Mülkəddin Rövşən oğlu,*
*doktorant,*
*Bakı Dövlət Universiteti,*
*E-mail: mulk1996@mail.ru*
*© Məmmədov M.R., 2025*

**UOT: 338.43, 338.312, 339**
**JEL: Q17, Q12, Q13**

# AQRAR SEKTORDA İSTEHSALIN SƏMƏRƏLİLİYİ VƏ XARİCİ TİCARƏTİN İNKİŞAFININ QARŞILIQLI TƏSİR İMKANLARI

## X Ü L A S Ə

**Tədqiqatın məqsədi** – aqrar sektorda istehsalın səmərəliliyi ilə sahə məhsullarının xarici ticarət göstəriciləri arasındakı qarşılıqlı asılılığı müəyyən etmək, xarici ticarətdə formalaşan əlverişsiz təsirlərin sosial-iqtisadi nəticələrini təhlil etmək və bu istiqamətdə səmərəli iqtisadi siyasətin formalaşdırılması üçün elmi əsaslandırılmış təkliflər irəli sürməkdən ibarətdir.

**Tədqiqatın metodologiyası** – məqalənin hazırlanmasında aqrar sahədə istehsalın səmərəlilik göstəricilərinin seçilməsinə dair metodoloji yanaşmalardan, aqrar məhsulların xarici ticarətinin tənzimlənməsinin əhəmiyyəti ilə bağlı nəzəri müddəalardan, həmçinin statistik təhlil, qrafik təsvir, ümumiləşdirmə və məntiqi mühakimə metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – xarici ticarətin aqrar sahənin inkişafına təsir imkanlarının müəyyənləşdirilməsi, istehsalın səmərəlilik göstəricilərinin mövcud vəziyyətinin qiymətləndirilməsi, bu göstəricilərin yüksəldilməsi ilə bağlı problemlərin aşkara çıxarılması, sosial-iqtisadi şərtlərin təhlili və aqrar məhsulların xarici ticarətinin tənzimlənməsi üzrə prioritet istiqamətlərin müəyyənləşdirilməsi ilə bağlıdır.

**Tədqiqatın nəticələri** – aqrar məhsulların xarici ticarətində idxal və ixrac arasındakı fərq göstəricilərinin dinamikası, qiymət və struktur xüsusiyyətləri, kənd təsərrüfatı istehsalında rentabellik göstəricilərinin istehsal amilləri üzrə müqayisəli təhlili əsasında formalaşan əsas problemlərin müəyyənləşdirilməsi və onların həlli istiqamətlərinin təqdim olunmasından ibarətdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – aqrar məhsulların xarici ticarətinin mövcud vəziyyətinə təsir edən amillərin istehsal və satış səmərəliliyi göstəriciləri əsasında sistemli şəkildə qiymətləndirilməsi, eləcə də idxaldan asılılığın azaldılması və ixrac göstəricilərinin yaxşılaşdırılması istiqamətində yeni elmi əsaslandırılmış yanaşmaların irəli sürülməsi ilə müəyyən edilir.

**Açar sözlər:** aqrar sektor, istehsal səmərəliliyi, xarici ticarət, rentabellik, maya dəyəri, qiymət.

## G İ R İ Ş

Aqrar sektor Azərbaycanın yüksək iqtisadi inkişaf potensialı olan sahələrindən biri olmaqla, xarici ticarətdə istehsal texnologiyaları, toxum və gübrələrin, əkinçilik və heyvandarlıq məhsulları kimi bir çox məhsulların dövriyyəsinin artmaqda olduğu, qeyri neft-qaz sahələri arasında ən yüksək ixrac gəlirlərinin əldə olunduğu istiqamətlərdəndir. Aqrar sektor məhsullarının xarici ticarəti iqtisadi xüsusiyyəti ilə yanaşı, sahənin inkişafına təsir göstərən təbii-iqlim amilləri, məhsullarının istehlak məhsulları bazarındakı rolu, sosial təminatın vacib elementlə-

AUDİT 2025, 4 (50), səh. 121-131.
AUDIT 2025, 4 (50), pp. 121-131.
АУДИТ 2025, 4 (50), стр. 121-131.

rindən olması, ərzaq təhlükəsizliyi kimi strateji məqsədin əsasını təşkil etməsi ilə diqqətdə saxlanılmalıdır. Dünyada baş verən qloballaşma prosesləri nəticəsində istər təbii-iqlim mühitində, istərsə də bazar mühitində, ölkələrin iqtisadi tənzimləmə siyasətindəki dəyişikliklər aqrar məhsulların istehsalına yanaşmada həssaslığın artırılmasını zəruri etmişdir. Belə ki, temperatur, yağıntının miqdarı, mövsümilik xüsusiyyətlərində baş verən dəyişikliklər bitkiçilik və heyvandarlıqda dayanıqlılığa, biomüxtəlifliyə bir çox hallarda mənfi təsir göstərmiş, xəstəliklərə və zərərvericilərə qarşı dayanıqlılığın azalmasına, məhsuldarlığın, məhsul keyfiyyətinin aşağı düşməsinə gətirib çıxarmışdır. Bu şərtlər üzrə müasir bitki və heyvan sortlarının yetişdirilməsi, istehsal texnologiyalarının təkmilləşdirilməsi isə ilk növbədə bazar maraqları üzrə həyata keçirilməyə başlanılmışdır. Lakin burada müasir texnologiyaların tətbiqində ölkələr üzrə ortaya çıxan fərqlər onların rəqabət üstünlüklərində mövqelərinə ciddi təsir göstərməklə həmin məhsulların idxal-ixracında, müasir istehsal texnologiyalarının inteqrasiyasında, daxili bazar mühitinin qorunmasında dövlət siyasətinin təkmilləşdirilməsi zərurətini artırmışdır. Xarici ticarət fəaliyyəti aqrar sektor məhsullarının xarici bazarlara çıxışı ilə yerli istehsalın, istehsalçı gəlirlərinin artırılmasına, müasir texnoloji yeniliklərin, bilik və təcrübənin əldə olunmasında, yerli istehsalın yetərli olmadığı istiqamətlərdə idxal hesabına bazar tələbinin daha yüksək səviyyədə qarşılanması, qiymət səviyyəsinin idxal və ixrac hesabına tənzimlənməsi kimi səmərəli təsirlərə malikdir. Milli iqtisadiyyatın inkişaf potensialının və milli iqtisadi maraqların daha yüksək səviyyədə reallaşdırılması baxımından ölkənin aqrar sektorunun ayrı-ayrı təsərrüfatlarında istehsal potensialının reallaşdırılma dərəcəsi, aqrar istehsalın daxili və sahələrarası əlaqələrinin reallaşdırılması səviyyəsi, xarici ticarətdən irəli gələn təsirlərin qısa, orta və uzunmüddətli perspektivdə doğuracağı imkanlar və risklər, yerli istehsal təsərrüfatlarının rəqabət qabiliyyətləri və s. kimi amillər aqrar məhsulların xarici ticarətinin səmərəliliyini müəyyən etməyə imkan verə bilər.

İlk növbədə hər bir ölkənin aqrar məhsulların istehsalı üzrə mövcud olan sosial-iqtisadi potensialı reallaşdırması, ölkədə məşğulluq, gəlir səviyyəsinin artırılması, aqrar məhsullarla əlverişli təminat, ərzaq və qida təhlükəsizliyi kimi məsələlərin həllində əhəmiyyətlidir. Hazırda aqrar sahədə istehsal üzrə səmərəliliyi təmin etmədən nəinki xarici bazarlarda, daxili bazarda belə rəqabət aparmaq, uzun müddət fəaliyyəti davam etdirmək mümkün deyildir. Baxmayaraq ki, aqrar sahədə istehsal əhəmiyyəti baxımından dövlətlər tərəfindən daha çox dəstəklənən sahələrdəndir, bununla belə səmərəliliyin artırılması istiqamətində irəliləyişlərə nail olunmaması dövlət üzərində iqtisadi yük yaratmaqla yanaşı, təsərrüfatların inkişafında hər zaman asılılıqdan irəli gələn risk amilini ortaya çıxarır. Buna görə də aqrar istehsal təsərrüfatlarına iqtisadi dəstəyin vacib istiqamətlərindən biri həmin təsərrüfatlarda fəaliyyətin səmərəlilik xüsusiyyətlərinin artırılmasına yönəlməlidir.

**Aqrar sahədə istehsalın səmərəlilik göstəriciləri və xarici ticarətinin tənzimlənməsinə nəzəri yanaşmalar**

Səmərəlilik aqrar istehsalda müxtəlif meyarlar əsasında, bir sıra göstəricilərə görə şərh olunur. İstehsalla bağlı olaraq iş qüvvəsi, maliyyə, torpaq və digər istehsal amillərinin istifadəsi ilə hazırlanmış məhsulun həcmi arasında funksional asılılığı göstərən natural və dəyər göstəriciləri istifadə olunmaqdadır. E.A. Quliyev kənd təsərrüfatında istehsal potensialından istifadənin səmərəliliyini istehsal resursları üzrə ayrılıqda nəzərdən keçirməklə, torpaqdan istifadənin səmərəliliyini mövcud potensialın reallaşdırılmasının əsas amili kimi önə çıxarmışdır [2, s.168].

V.H. Abbasov kənd təsərrüfatında istifadə olunan istehsal amilləri üzrə iqtisadi səmərəliliyin göstəricilər sistemini, onların istifadəsində iqtisadi səmərəliliyə təsir edən amillər və onun

**AUDİT 2025, 4 (50), səh. 121-131.**
**AUDIT 2025, 4 (50), pp. 121-131.**
**АУДИТ 2025, 4 (50), стр. 121-131.**

yüksəldilməsi yollarını istehsal amilləri üzrə ayrılıqda nəzərdən keçirmişdir. Həmçinin kənd təsərrüfatı istehsalının özünəməxsus xüsusiyyətlərinin istehsalın təşkilindən son məhsulun satışına, investisiya qərarları, idarəetmə və s. kimi proseslərə təsirinə görə iqtisadi səmərəliliyin artırılması tədbirlərində nəzərə alınmasının əhəmiyyəti qeyd etmişdir [4, s.81-120].

Kənd təsərrüfatı istehsalının səmərəliliyini müəyyən edən və ona təsir edən amillərin qruplaşdırılmasında sosial-iqtisadi, təbii-iqlim, ekoloji, bazar, informasiya-məsləhət, institusional, innovativ-texnoloji amillərin müəyyənləşdirilməsinə də rast gəlinir [1, s.186].

Kənd təsərrüfatında istehsal, satış, idarəetmə və ümumilikdə bütün fəaliyyət istiqamətlərində səmərəliliyi təmin etmədən sahənin fəaliyyətində dayanıqlılığı, uzunmüddətli və davamlı inkişafı, rəqabət qabiliyyətini və xarici iqtisadi əlaqələrdə səmərəliliyi təmin etmək demək olar ki, mümkün deyildir. Xarici iqtisadi əlaqələrdə hər nə qədər xüsusi tədbirlərlə müəyyən hallarda yerli istehsalın qorunmasına nail olunsa da, sahənin inkişaf perpektivlərini nəzərə aldıqda ölkə üzrə rəqabətqabiliyyətliliyin bir istiqaməti kimi, kənd təsərrüfatı üçün lazım olan dayanıqlı inkişaf şərtləri təmin olunmalıdır.

Kənd təsərrüfatında yerli istehsal şəraiti əlverişli olmayan məhsulların idxalı, əsasən ərzaq məhsullarında daxili bazar tələbi olduqda zərurətə uyğun şəraitdə həyata keçirilməli və yerli istehsalı olan məhsullarla müqayisədə daha yumşaq vergi və gömrük rüsumları tətbiq oluna bilər. Xarici ticarətdə qarşılıqlı şəkildə məhdudiyyətlərin tətbiqi təkcə yerli istehsalın qorunması ilə deyil, yerli istehsal məhsullarının ixrac imkanlarında da azalmaya səbəb ola bilər. Hesab olunur ki, ticarət həcminin və dövriyyəsinin artması ilə kənd təsərrüfatında məhsul istehsalının artırılmasının planlaşdırılması və proqnozlaşdırılması mümkün olmaqla əhalinin maddi rifahının yüksəldilməsinə, nəticədə istehlak və xidmətlər bazarının inkişafına əlavə potensial yaradır. Qiymət sabitliyi, ərzaq çeşidliliyinin artması, ərzaq əlçatanlığının yüksəldilməsi də müsbət təsirlərdən hesab olunur [3, s.116-117].

Təkcə bu cür hallar deyil ölkələrin iqtisadi siyasətində kənd təsərrüfatına dövlət dəstəyi mexanizmində yanaşmanın dəyişdirilməsi istiqamətində təsirlər hazırda xarici ticarət siyasətində aktuallığını qorumaqdadır. Dövlət dəstəyinin yüksək əhəmiyyəti olan kənd təsərrüfatında xarici ticarət modelinin daha da liberallaşdırılması istiqamətində xarici iqtisadi əlaqələrdə gündəmə gətirilən bir sıra şərtlər ölkənin daxili inkişaf şərtləri ilə uzlaşdırılmadan həyata keçirilərsə ciddi problemləri ortaya çıxara bilər. Neoliberal siyasətin yayılması fonunda inkişaf etdirilməyə çalışılan, ölkədə kənd təsərrüfatı istehsalını dəstəkləyən ənənəvi dövlət dəstəyinin bir çox elementlərin ləğvini nəzərdə tutan siyasətə yanaşma əlbəttə birmənalı deyildir. Bəzi yanaşmalarda bunun öz daxilində inkişaf şərtlərini daha yaxşı təmin etmiş inkişaf etmiş ölkələrə məxsus istehsalçıların inkişaf etməkdə olan ölkələrdə maraqlarını daha yüksək səviyyədə təmin etməyə hədəfləndiyini qeyd edirlər. Nəticədə özünün istehsal şərtlərini təkmilləşdirə bilməyən ölkələr üçün dövlət dəstəyinin azaldılması və idxalda yol verilən liberallaşmanın ölkənin kənd təsərrüfatı sahəsində ciddi inkişaf problemləri yaratma riski ortaya çıxır. Beynəlxalq maliyyə qurumları və iqtisadi təşkilatlar vasitəsilə kənd təsərrüfatının kredit imkanlarının yaxşılaşdırılması ilə bağlı təşviqedici təkliflər irəli sürülsə də, qoyulan tələblər əksər hallarda xarici firmaların yerli bazara girişinə şərait yaratmağa hədəflənmişdir [5].

İnkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatında istehsalın təşkilində əsas məsələlərdən biri maliyyə təminatı ilə bağlıdır. Maliyyə təminatı istehsalçıların istehsala amillərinin əldə olunması, yeniliklərin, texnologiyaların təkmilləşdirilməsinin, kənd təsərrüfatı məhsullarının emalının və s. kimi proseslərin həyata keçirilməsində vacib amildir. Kredit, subsidiya, vergi, rüsum, sığorta kimi müxtəlif maliyyə alətlərinin istehsalın inkişaf tələblərinə uyğun mövcudluğu və

**AUDİT 2025, 4 (50), səh. 121-131.**
**AUDIT 2025, 4 (50), pp. 121-131.**
**АУДИТ 2025, 4 (50), стр. 121-131.**

adekvat istifadə imkanları kənd təsərrüfatı istehsalının inkişafını müəyyənləşdirə bilir. İnkişaf etməkdə olan ölkələrdə qeyri-adekvat hökumət siyasəti və dəstəyi, fermerlərin yığımlarının olmaması, kredit və maliyyə xidmətlərinin əlçatan olmaması fermerlərin maliyyə resurslarına çıxışını çətinləşdirən amillər kimi qiymətləndirilir [11].

Kənd təsərrüfatı məhsullarının xarici ticarətində təkcə yerli istehsalçıların maraqları deyil, yerli istehlakçıların maraqları, sağlamlığı, keyfiyyətli və etibarlı ərzaq təminatı kimi məsələlər də nəzərə alınmalıdır. İstehlakçılar üçün kənd təsərrüfatı məhsullarının xarici ticarətində səmərəlilik, yerli bazarda onlar üçün əlverişli şərtlərlə, keyfiyyətli məhsulların əldə olunması, bu tip məhsulların əlçatanlılığı kimi amillər nəzərə alınmalıdır. Kənd təsərrüfatı məhsulları istehlak məhsulları bazarında ərzaq, yem, qida və qeyri-qida təyinatlı məhsulları və onların sənaye emalından keçmiş məhsullarını əhatə etməklə, keyfiyyət göstəricilərinin, əlçatanlılığın əhəmiyyəti ərzaq məhsulları üzrə daha çox önə çıxır. Toxumçuluq sahəsində müxtəlif iri istehsalçıların dünya bazarında inhisarçı mövqe qazanmaqla yerli bazara nüfuz etməsi, keyfiyyətli yerli istehsal sortlarının sıradan çıxması, həmin inhisarçılardan asılılığın artması kimi neqativ nəticələrə gətirə bilər. Taxılçılığa dair digər bir riskli məqam kimi belə bir fikrə rast gəlinir ki, müəyyən firmaların patentləşdirdiyi idxal toxumların yerli toxumları əvəz etməsi özünəməxsus əkin, kimyalaşdırma və digər istehsal şərtləri daxilində yüksək məhsuldarlıq verə bilir. Lakin yerli istehsal şəraitində qarşılaşılan hər hansı bir uyğunsuzluq yerli məhsulla müqayisədə məhsuldarlığın kəskin şəkildə aşağı düşməsinə və istehsalçının zərərlə üzləşməsinə səbəb olur [6].

Ənənəvi bitki və heyvan sortlarının idxal sortları ilə əvəzlənməsi, qiymət, istehsalçının rentabelliyi, məhsuldarlıq və s. kimi istehsal və bazar şərtləri daxilində sıradan çıxdıqca həmin toxumların istehsalçılarının və idxalçılarının kənd təsərrüfatı məhsulları bazarına diktə imkanları genişlənmiş olur, yeni istehsal şərtlərini təmin edə bilməyən kəndli təsərrüfatları sıradan çıxmaqla, son məhsulun istehsalında da inhisarlaşma meyilləri güclənir. İstehsal potensialı olan və istehsalı mövcud olan yerli məhsulların bazarda mövqeyi qorunmadıqca, idxal məhsullarına istehlakçı üçün idxalı əlverişli göstərən şərtlərə yol verildikcə, idxalla məşğul olan ticarət subyektlərinin istehsalı həyata keçirən kəndlilər, fermerlər, istehsal prosesi ilə əlaqəli fəaliyyət göstərən işçilərin üzərində rəqabət üstünlüyü yaradılmış olur. Nəticədə ölkənin sosial-iqtisadi baxımdan ən əhəmiyyətli hesab olunan sahələrindən biri olan kənd təsərrüfatında istehsal və sosial əlaqələr pozulur, kənd və şəhərlər üzrə gəlir bərabərsizliyinin daha da artmasına şərait yaranır. Bu cür strateji təsiri nəzərə alınmaqla yerli istehsalın daxili bazar üçün yetərsiz olduğu, məhsul artıqlığı yarandığı, qiymət səviyyəsinin yüksək hesab olunduğu, bazar qiymətinin istehsalçının sahədə qalma həddindən aşağı olduğu hallarda dövlət iqtisadi mexanizmləri ilə bazarda maraqları uzlaşdırmalıdır.

**Azərbaycanda aqrar məhsulların xarici ticarətinin inkişaf xüsusiyyətləri**

İnkişaf etməkdə olan ölkələrdə milli iqtisadiyyatda əsasən birtərəfli inkişaf meyili, yerli istehsal və ixrac potensialının zəif reallaşdırılması xarici ticarətdə də özünü göstərmişdir. Bu cür ölkələrdə ənənəvi kənd təsərrüfatı digər sahələrlə müqayisədə daha çox önə çıxmaqla ixrac fəaliyyətində əksər hallarda kənd təsərrüfatı ixracı fərqlənmişdir. Lakin BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının da paylaşdığı təhlil göstəricilərinə əsasən son dövrlərdə aşağı inkişaf etməkdə olan ölkələr üzrə kənd təsərrüfatı məhsullarının idxal həcminin ixracı üstələdiyi görünür və bu tendensiyanın artma meyilinin olması gözlənilir [7]. Bütün bunlar bir daha onu göstərir ki, kənd təsərrüfatı məhsulları üzrə xarici ticarət fəaliyyətinin səmərəliliyinə ölkələrin iqtisadi, elmi-texnoloji sahədə qazandıqları nailiyyətlər, əhali sayının dinamikası, istehsal resurslarının həcmi və istifadəsinin səmərəliliyi ciddi şəkildə təsir göstərir.

**AUDİT 2025, 4 (50), səh. 121-131.**
**AUDIT 2025, 4 (50), pp. 121-131.**
**АУДИТ 2025, 4 (50), стр. 121-131.**

Azərbaycanın aqrar sektorunun ixracatında kənd təsərrüfatı məhsullarının emalı üzrə bir sıra istiqamətlərdə irəliləyişlər müşahidə edilsə də, meyvə və tərəvəz ixracatda əsas paya sahibdir. Bitkiçilik, diri heyvan və heyvan mənşəli məhsullar, heyvan və bitki mənşəli piylər və yağlar, hazır ərzaq məhsulları, alkoqollu və alkoqolsuz içkilər, sirkə, tütün və onun əvəzediciləri kimi qruplaşdırılan aqrar məhsulların xarici ticarət göstəricilərinin Qrafik 1.-də verilən təsvirinə əsasən 2015-2023-cü illərdə əsasən dəyər ifadəsində artma meyili görülməkdədir.

***Qrafik 1.***

**Aqrar məhsulların idxal və ixracı, milyon ABŞ dolları ilə**




***Mənbə: ARDSK-nın məlumatları əsasında tərtib olunmuşdur.***

2015-2023-cü illərdə bütün hallarda nəzərdən keçirilən məhsullar üzrə ümumi idxalın dəyəri ixrac dəyərindən yüksək olmuşdur. Lakin iki göstərici arasındakı fərqin əsasən artma tendensiyasında olduğu görünür. Müqayisə üçün 2015-ci ildə idxalın həcmi ixrac həcmindən 595,6 milyon ABŞ dolları çox olmuşdursa, 2023-cü ildə bu fərq təxminən 2,7 dəfə artaraq 1612,1 milyon ABŞ dolları olmuşdur. 2015-ci illə müqayisədə 2023-cü ildə ixrac həcmi 25,8% (orta hesabla illik 3,2%), idxal həcmi isə 88,9% (orta hesabla illik 11,1%) artmışdır. Bu dövrdə ümumilikdə həmin məhsullar üzrə 6889,3 milyon ABŞ dolları məbləğində valyuta gəlirlərinə qarşılıq, 17661,7 milyon ABŞ dolları idxala yönəldilmişdir.

Beləliklə, yuxarıda qeyd olunan, inkişaf etməkdə olan ölkələrdə müşahidə olunan kənd təsərrüfatı və aqrar yönümlü məhsulların idxalının ixracına üstünlüyü tendensiyası Azərbaycanda da müşahidə edilməkdədir. Bunun səbəblərini inflyasiya, əhalinin say artımı, yoxsul ölkələrdə gəlir səviyyəsindəki ilkin artımın bu tip məhsullar üzərindəki tələbə müsbət təsiri kimi amillərlə də izah etmək mümkündür. Lakin, məsələni təkcə dinamika ilə deyil, həm də struktur baxımından nəzərdən keçirmək lazımdır. Dinamika baxımından inkişaf etmiş texnologiyalara əsaslanan aqrar istehsala malik ölkələr daha yüksək artımla ixracatlarını artırmağa, idxaldan asılılığı azaltmağa nail ola bilirlər. Həmçinin aqrar sənaye kompleksinin inkişafı ilə sahənin əlavə dəyər potensialını daha yüksək səviyyədə reallaşdıra bilirlər. Azərbaycanda aqrar sektorun resurs potensialını da nəzərə aldıqda inkişaf imkanları yüksəkdir və buna uyğun olaraq yerli istehsalın artırılması həm idxaldan asılılığı azalda bilər, həm də ixracın artımında göstəricilərin yaxşılaşmasına şərait yaradar.

**AUDİT 2025, 4 (50), səh. 121-131.**
**AUDIT 2025, 4 (50), pp. 121-131.**
**АУДИТ 2025, 4 (50), стр. 121-131.**

Aqrar sektorun məhsulları əsasən əhalinin ərzaq və qida təminatındakı roluna görə diqqət mərkəzində saxlanılmaqla yanaşı, tikiş və tekstil, kimya, qida sənayesi, əczaçılıq və s. kimi sahələrin xammalla təminatını həyata keçirməklə sahələrarası fəaliyyət komplekslərində iştirak edir. Həmin sahələrlə inkişaf asılılıqları yaranan aqrar sektorun təkcə öz daxilində deyil, həmin sahələrdə də inkişafdan asılı olaraq milli iqtisadiyyatda rolu müəyyənləşir. Xarici iqtisadi əlaqələrdə isə daha çox kənd təsərrüfatı və onunla əlaqəli fəaliyyət göstərən sahələrin formalaşmış olan münasibətlər, maraqlar, əlaqə və prinsiplərin mənfi istiqamətdə pozulmasına səbəb olacaq təsirlərindən qorunmaq vacib məsələlərdəndir.

Bazar mühitində iqtisadi baxımdan qiymət və qeyri-qiymət amillərinin təsiri altında əlverişsiz xarici təsir mövcud sistemin bütün daxili əlaqələrini sıradan çıxara bilər. Ölkədə idxalın ixracla müqayisədə daha çox artmasını nəzərə aldıqda eyni məhsul növlərində yerli bazarda qiymətin təsir imkanları nəzərə alınmalıdır. Xüsusilə kənd təsərrüfatı kimi həssas sahələrdə yerli istehsal məhsulu ilə müqayisədə daha uyğun şərtlərdə idxal məhsulunun bazara buraxılması sahənin sürətlə tənəzzülünə səbəb ola bilər. Ona görə də, yerli istehsalın yetərsizliyinin idxalla tamamlanması məqsədi və xarici istehsalçı, kommersiya subyektlərinin qazanc marağı arasında fərq dəqiqliklə nəzərə alınmalı, yerli istehsalın azalmasına gətirəcək təsirlərə yol verilməməlidir.

Azərbaycanda 2023-cü ildə aqrar məhsulların qiymətlərini müqayisə etdikdə 1 ton məhsul üzrə qiymət idxal həcminin dəyər baxımından daha yüksək olduğu diri heyvanlarda ixracda 769.7, idxalda 3031.7, ət və qida üçün yararlı ət əlavələrində ixracda 1584.6, idxalda 2079.6, süd məhsulları, quş yumurtası, təbii bal, başqa yerdə adı çəkilməyən və təsnif olunmayan heyvan mənşəli ərzaq məhsullarında ixracda 1731.8, idxalda 3532.1 ABŞ dolları olmuşdur. İxrac göstəricisinin daha yüksək olduğu tərəvəz və bəzi yeməli meyvəköklülər və kök yumrularında ixracda 845.1, idxalda 364.2, yeməli meyvələr, qoz-fındıq, sitrus meyvələrinin qabıqları və ya qovun qabıqlarında ixracda 1090.8, idxalda 1096.1 ABŞ dolları olmuşdur [9]. İdxal və ixracda məhsul həcminə görə bu cür qiymət fərqlərinin məhsulun xüsusiyyətlərindən də irəli gələn obyektiv səbəbləri ola bilər. Daha uyğun qiymətlə məhsul idxalının yerli istehsalçılarda rəqabətə uyğunlaşmaq üçün inkişaf yönümlü təsir göstərmə ehtimalı olsa da, nəzərə almaq lazımdır ki, yerli idxalda yerli məhsuldan ucuz daxilolma rəqabətdə mənfi təsir yarada biləcəyi kimi, ixracla müqayisədə eyni miqdara daha çox ödəniş milli gəlirin, investisiya imkanlarının azalmasına səbəb ola bilər.

Aqrar məhsulların xarici ticarətində yerli istehsalla bağlı əsas problemlərdən biri də, yerli istehsalı mövcud olan kənd təsərrüfatı məhsullarının müəyyən qruplarında istehsalın faktiki həcminin daxili tələbin tam qarşılanma həddindən aşağı göstəricilərdir. Bundan başqa hazır və emal olunmuş məhsullar üzrə istehsal potensialının zəif reallaşdırılması daha yüksək əlavə dəyərə malik aqrar emal məhsullarının idxalından asılılığın yüksək olmasına, idxalın həcminin ixracdan daha yüksək olmasına gətirib çıxarmışdır. Struktur baxımından isə əsasən emal olunmamış meyvə və tərəvəzlərin ixracda üstünlüyü, həm də bu məhsulların ixracda digər məhsullarla müqayisədə yüksək xüsusi çəkisi inkişaf etməkdə olan ölkələrə xas xüsusiyyətlərdən biri kimi qalmaqdadır.

**Kənd təsərrüfatında iqtisadi fəaliyyətin səmərəlilik göstəricilərinin təhlili**

Mənfəətin xərclərə faiz nisbəti ilə hesablanan rentabellik göstəricisi kənd təsərrüfatında da iqtisadi fəaliyyətin səmərəliliyin əsas ümumi göstəricilərindəndir. İstehsalın rentabelliyi məhsul vahidinin istehsalına çəkilən xərclər və bu xərclərin qiymət üzrə hansı dərəcədə qarşılanması ilə müəyyənləşir. Rentabellik istehsalçıların fəaliyyətə yönəlmə, fəaliyyəti davam etdirmə kimi

**AUDİT 2025, 4 (50), səh. 121-131.**
**AUDIT 2025, 4 (50), pp. 121-131.**
**АУДИТ 2025, 4 (50), стр. 121-131.**

qərarlarına birbaşa ciddi təsir edən göstəricidir. Dövlət tərəfindən kənd təsərrüfatında istehsalçılara göstərilən maddi dəstək əsasən istehsalçıların məhsullara çəkilən xərclərinin bir hissəsini qarşılamaqla rentabellik göstəricisini fəaliyyəti davam etdirəcək həddə saxlamaq, yaxud həmin istiqamətə yönəldəcək həddə yüksəltməkdən ibarət olur. Cədvəl 1-ə baxdıqda Azərbaycanda kənd təsərrüfatı müəssisələrində satışın rentabelliyi üzrə göstəricilərin illər üzrə kəskin şəkildə dəyişə bildiyi görünür.

*Cədvəl 1.*

**Azərbaycanda kənd təsərrüfatı müəssisələrinin mənfəət və rentabellik göstəriciləri**

| Göstəricilərin adı | 2015 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|
| Bitkiçilik məhsulları | | | | | | |
| rentabellik, faiz | 36 | 35.7 | 29.2 | 51.7 | 51.9 | 35.6 |
| mənfəət, min manat | 20241 | 68795 | 69321 | 127159 | 170174 | 126029 |
| Heyvandarlıq məhsulları | | | | | | |
| rentabellik, faiz | 7.1 | 3.4 | 9.5 | 8.5 | 23.6 | 21.8 |
| mənfəət, min manat | 19993 | 10481 | 27180 | 32557 | 113751 | 132731 |

***Mənbə: ARDSK-nın məlumatları əsasında tərtib olunmuşdur.***

Cədvəl 1-dən də göründüyü kimi, Azərbaycanda kənd təsərrüfatı müəssisələrində satış rentabelliyi nəzərdən keçirilən illərdə bitkiçilik sahəsində heyandarlıqla müqayisədə daha yüksəkdir. 2015-ci illə müqayisədə 2023-cü ildə rentabellik göstəricisinin müqayisəsində bitkiçilikdə 0,4% azalma, heyvandarlıqda 14,7% artım olmuşdur. Bununla belə mənfəətin miqdarı bu illərin müqayisəsində ciddi şəkildə artmış, bitkiçilikdə 6,2 dəfə, heyvandarlıqda 6,6 dəfə olmuşdur.

Ayrı-ayrı məhsul növləri üzrə rentabellik göstəricilərinin müqayisəsində isə çox kəskin enmə-qalxmalar diqqəti cəlb edir. Belə ki, kartofda 2015-ci ildə 17,6%, 2023-cü ildə 214,5%, emal üçün şəkər çuğundurunda 2015-ci ildə 201,8%, 2023-cü ildə 0,7%, açıq torpaqda yetişdirilən tərəvəzdə 2020-ci ildə 1,5%, 2023-cü ildə 76,3% kimi kəskin fərqləri qeyd etmək olar. Belə fərqlərin yaranmasında qiymət amilinin də əhəmiyyətli rolu vardır. 2015-ci illə müqayisədə 2023-cü ildə kartofun qiymətində 2,5 dəfə, açıq torpaqda yetişən tərəvəzdə isə 2020-ci illə müqayisədə 2023-cü ildə 2,5 dəfə artım olmuşdur [10].

Rentabellikdə qiymətlə yanaşı məhsul istehsalında istifadə olunan istehsal amillərinə çəkilən xərclər nəzərə alınmalıdır. Kənd təsərrüfatı məhsullarının bir sentnerinə görə əmək məsarifi göstəricilərinə nəzər saldıqda burada 2015-ci illə 2023-cü ildə müqayisədə əksər məhsul növləri üzrə göstəricilərin yaxşılaşdığı, məhsulun istehsalına sərf olunan adam-saatların miqdarında azalmaların olduğu görünür.

İqtisadi səmərəlilik baxımından mənfi hesab oluna biləcək hal ondan ibarətdir ki, 2015-ci illə müqayisədə əksər kənd təsərrüfatı məhsullarının maya dəyərində artım olmuşdur. Ən yüksək mütləq artım burada iribuynuzlu mal-qaranın çəki artımında olmuşdur (1 sentnerə görə 158.8 manat). Kənd təsərrüfatı istehsalında maya dəyərinin artımı kompleks məsələ olduğundan təkcə istehsal texnologiyalarının təkmilləşdirilməsi ilə tənzimləmək demək olar ki, mümkün deyildir. Kənd təsərrüfatı istehsal fəaliyyətində enerji, yanacaq, gübrə, müxtəlif dərman preparatları, maşın və avadanlıqlar, iş qüvvəsi və s. kimi amillərdən istifadə edir. Həmin istehsal amillərinin qiymətlərində baş verən dəyişikliklər kənd təsərrüfatı üçün də qaçılmaz olaraq maya dəyərində

AUDİT 2025, 4 (50), səh. 121-131.
AUDIT 2025, 4 (50), pp. 121-131.
АУДИТ 2025, 4 (50), стр. 121-131.

öz əksini tapmış olur. Bütün bunların qarşılığında maya dəyərinin azaldılmasının fəaliyyət daxilində yeganə yolu məhsuldarlığın və intensivliyin artırılması, istehsal itkilərinin minimuma endirilməsidir.

Kənd təsərrüfatı özünün təbii-iqlim amillərinə bağlı olan resurs potensialını sürətlə dəyişdirmə imkanları məhdud olan sahə olduğundan, istehsal imkanlarının artırılmasında daha çox intensiv metodlardan istifadəni şərtləndirir. Torpaq ehtiyatlarından istifadə səviyyəsini yüksəltmək kimi ekstensiv imkanların olduğu hallarda da xarici ticarətdə səmərəlilik göstəriciləri belə təsərrüfatların dayanıqlılığını daha çox müəyyən edir. Azərbaycanda kənd təsərrüfatı müəssisələrinin mülkiyyətində və istifadəsində olan torpaqların sahəsinə dair ümumi göstəricilərə (Diaqram 1.) baxdıqda əkinə yararlı və cəmi torpaq sahəsinin artdığı görünür. Lakin bu müəssisələrin mülkiyyətində və (və ya) istifadəsində olan kateqoriyalı torpaq sahəsinin 2015-ci illə müqayisədə 2019-cu ildə 14155 hektar, 2023-cü ildə 9117 hektar az olmuşdur.

*Diaqram 1.*

**Kənd təsərrüfatı müəssisələrinin mülkiyyətində və istifadəsində olan torpaq, hektar**




*Mənbə: ARDSK-nın məlumatları əsasında tərtib olunmuşdur.*

2015-ci illə müqayisədə 2019 və 2023-cü illərdə müvafiq olaraq kənd təsərrüfatına yararlı torpaqların sahəsi 77244 hektar (27,7%) və 231658 hektar (83,2%), cəmi torpaqların sahəsi 59703 hektar (19,1%) və 200203 hektar (63,9%) artmışdır. Kənd təsərrüfatı müəssisələri tərəfindən icarəyə götürülmüş torpaq sahəsində də 2015-ci illə müqayisədə əhəmiyyətli dərəcədə artım olmuşdur. Bu artım 2019-cu ildə 73537 hektar (95,7%), 2023-cü ildə 205329 hektar (267,2%) təşkil etmişdir [10]. İcarəyə götürülmüş torpaq sahələrinin artması əsas etibarilə dövlət mülkiyyətində olan torpaqlar hesabına həyata keçirilməklə, torpaqdan istifadəyə stimulun artması kimi də qiymətləndirilə bilər. Orta hesabla hər bir təsərrüfata düşən kənd təsərrüfatına yararlı torpaq sahəsi bu üç il üzrə ardıcıl olaraq 167,7, 241,6 və 416,9 hektar olmaqla artma meyili göstərmişdir [10]. İstehsalın təşkilinin səmərəliliyi baxımından kənd təsərrüfatının inkişaf xüsusiyyətinə uyğun olaraq təsərrüfat vahidinə orta hesabla düşən kənd təsərrüfatına yararlı torpaq sahəsinin artması faktiki istifadədə imkanlarını artırır.

Azərbaycanda kənd təsərrüfatı bitkilərinin cəmi əkin sahəsi 2015-ci illə müqayisədə 2019-cu ildə 8,3% artmış, 2023-cü ildə 3,1% azalmışdır. 2019-cu illə müqayisədə bitkiçiliyin ümumi məhsulu faktiki qiymətlərlə 2023-cü ildə 58,1% artmışdır. Belə artımın səbəblərindən biri

**AUDİT 2025, 4 (50), səh. 121-131.**
**AUDIT 2025, 4 (50), pp. 121-131.**
**АУДИТ 2025, 4 (50), стр. 121-131.**

inflyasiya ilə əlaqəli olsa da, 2019-cu illə müqayisədə cəmi əkin sahəsinin 2023-cü ildə 10.6% azaldığını da nəzərə aldıqda bitkiçilikdə əkin sahəsi üzrə real gəlir artımına nail olunduğu qənaətinə gəlmək olar [10].

## Y E K U N

Aqrar məhsulların istehsalının və xarici ticarətinin səmərəliliyinə dair baxılan yanaşmalar, təhlillər əsasında aşağıdakı nəticələri qeyd etmək olar:

– aqrar məhsulların xarici ticarətində istehsalın səmərəliliyi rəqabət imkanları baxımından daha çox önə çıxır;

– istehsalın səmərəliliyi əsasən istifadə olunan istehsal amillərinə görə müəyyənləşdirilməklə, bütün amillərin kompleks səmərəli istifadəsi ilə yüksək və dayanıqlı nəticə verə bilər;

– istehsal amillərinin kəmiyyət və keyfiyyət xüsusiyyətləri, qiymətləri ölkələr üzrə fərqli olduğundan son məhsulların xarici ticarətdə satış şərtləri eyni olmayacaqdır. Buna görə dövlət tərəfindən ilk növbədə yerli istehsalın qorunması və təkmilləşməsi prinsipi əsas götürülməlidir;

– Azərbaycanda əksər kənd təsərrüfatı məhsullarına əmək məsarifində müəyyən azalmalar olsa da, maya dəyərinin əksər məhsullarda artması, digər istehsal amillərinin qiymət artımlarını qarşılayıcı maddi və maliyyə dəstəyi tədbirlərinin genişləndirilməsini əhəmiyyətli edəcəkdir;

– kənd təsərrüfatı məhsullarının istehsalı ilə yanaşı emalı sahələrində inkişaf potensialını yüksək səviyyədə reallaşdırmadan aqrar məhsulların xarici ticarətində idxalın ixracdan üstünlüyünü hazırkı tendensiyada iqtisadi yollarla təmin etmək mümkün olmayacaqdır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI:

1. Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika). Bakı, 2017, “Kooperasiya” nəşriyyatı, 536 s. s.186.
2. Quliyev E.A. Etibarlı ərzaq təminatı sistemi: kooperasiya və inteqrasiya problemləri. Monoqrafiya. Bakı, “Elm” nəşriyyatı, 2013, 308 s. s.168.
3. Quliyev E.A. Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər. “Kooperasiya” nəşriyyatı, Bakı – 2018, 480 s. s.116-117.
4. Abbasov V.H. Aqrar sahədə iqtisadi tənzimləmənin aktual problemləri (monoqrafiya). Bakı – 2012, 424 s. s.81-120.
5. https://dergipark.org.tr/en/download/article-file/1503381
6. https://dergipark.org.tr/tr/download/article-file/852529
7. https://www.fao.org/4/y4252e/y4252e11.htm#Note3
8. https://www.stat.gov.az/source/trade/
9. https://customs.gov.az/az/faydali/gomruk-statistikasi/statistics-bulletin
10. https://www.stat.gov.az/source/agriculture/
11. https://agroeconomics.az/pdf/articles/jurnal-n1-2023-r332.pdf

**AUDİT 2025, 4 (50), səh. 121-131.**
**AUDIT 2025, 4 (50), pp. 121-131.**
**АУДИТ 2025, 4 (50), стр. 121-131.**

*Mulkeddin Rovshan Mamedov,*
*Ph.D. Student,*
*Baku State University,*
*E-mail: mulk1996@mail.ru*
*© M.R. Mamedov, 2025*

# POSSIBILITIES OF INTERACTION BETWEEN PRODUCTION EFFICIENCY AND FOREIGN TRADE DEVELOPMENT IN THE AGRO-INDUSTRIAL COMPLEX

## A B S T R A C T

**The purpose of the research** is to identify the interdependence between production efficiency in the agricultural sector and the indicators of the sector's foreign trade, to analyse the socio-economic consequences of adverse effects arising in foreign trade, and to propose scientifically grounded recommendations for the development of effective economic policy in this area.

**The methodology of the research** – the preparation of the article employed methodological approaches to selecting efficiency indicators of agricultural production, theoretical frameworks concerning the regulation of foreign trade in agricultural products, as well as statistical analysis, graphical presentation, generalisation, and logical reasoning methods.

**The practical importance of the research** lies in determining the potential impact of foreign trade on the development of the agricultural sector, assessing the current state of production efficiency indicators, identifying challenges related to improving these indicators, analysing socio-economic conditions, and defining priority directions for regulating the foreign trade of agricultural products.

**The results of the research** include an analysis of the dynamics of the gap between import and export of agricultural products, an assessment of price and structural characteristics, the identification of key problems based on a comparative analysis of profitability indicators in agricultural production by production factors, and the presentation of main directions for addressing these problems.

**The originality and scientific novelty of the research** are reflected in the systematic evaluation of factors influencing the current state of foreign trade in agricultural products based on production and sales efficiency indicators, as well as in the proposal of new scientifically substantiated approaches aimed at reducing import dependence and improving export performance.

**Keywords:** agricultural sector, production efficiency, foreign trade, profitability, cost price, price.

**AUDİT 2025, 4 (50), səh. 121-131.**
**AUDIT 2025, 4 (50), pp. 121-131.**
**АУДИТ 2025, 4 (50), стр. 121-131.**

*Мамедов Мулкеддин Ровшан оглы,*
*докторант,*
*Бакинский Государственный Университет,*
*E-mail: mulk1996@mail.ru*
*© Мамедов М.Р., 2025*

# ВОЗМОЖНОСТИ ВЗАИМОДЕЙСТВИЯ ЭФФЕКТИВНОСТИ ПРОИЗВОДСТВА И РАЗВИТИЯ ВНЕШНЕЙ ТОРГОВЛИ В АГРОПРОМЫШЛЕННОМ КОМПЛЕКСЕ

## Р Е З Ю М Е

**Цель исследования** – определить взаимозависимость между эффективностью производства в аграрном секторе и показателями внешней торговли продукцией отрасли, проанализировать социально-экономические последствия неблагоприятных воздействий, формирующихся во внешней торговле, а также выдвинуть научно обоснованные предложения для формирования эффективной экономической политики в данном направлении.

**Методология исследования** – при подготовке статьи использованы методологические подходы к определению показателей эффективности аграрного производства, теоретические положения, связанные с регулированием внешней торговли аграрной продукцией, а также методы статистического анализа, графической интерпретации, обобщения и логического анализа.

**Практическая значимость исследования** заключается в выявлении возможностей влияния внешней торговли на развитие аграрной сферы, оценке текущего состояния показателей эффективности производства, определении проблем, связанных с их повышением, анализе социально-экономических условий, а также в формулировании приоритетных направлений регулирования внешней торговли аграрной продукцией.

**Результаты исследования** включают анализ динамики различий между импортом и экспортом аграрной продукции, оценку ценовых и структурных особенностей внешней торговли, а также выявление основных проблем на основе сравнительного анализа показателей рентабельности сельскохозяйственного производства по производственным факторам и определение основных направлений их решения.

**Оригинальность и научная новизна исследования** определяются системной оценкой факторов, влияющих на текущее состояние внешней торговли аграрной продукцией, на основе показателей эффективности производства и реализации, а также предложением новых научно обоснованных подходов, направленных на снижение импортной зависимости и улучшение экспортных показателей.

**Ключевые слова:** аграрный сектор, эффективность производства, внешняя торговля, рентабельность, себестоимость, цена.

*Məqalə redaksiyaya daxil olmuşdur: 19.06.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 28.08.2025*
*Çapa qəbul olunmuşdur: 31.10.2025*

*Дата поступления статьи в редакцию: 19.06.2025*
*Отправлено на повторную обработку: 28.08.2025*
*Принято к печати: 31.10.2025*

*The date of the admission of the article to the editorial office: 19.06.2025*
*Send for reprocessing: 28.08.2025*
*Accepted for publication: 31.10.2025*